# Milli xalq təfəkküründə mövsüm mərasimləri

**Xalq mənəviyyatının sərvəti olan şifahi söz sənətinin mənşəyi insan təfəkkürünün hələ tam formalaşmadığı çağlarla bağlıdır. İbtidai tarixi dövrlərdə təbiət və cəmiyyət hadisələri insanlarda yalnız müşahidə və ilkin təsəvvürlər yaradırdı. Təbiətdə baş verən hadisələrin yaranma səbəblərini dərk edə bilmədiklərindən insanlar onlara ilahi varlıqların müdaxiləsi kimi baxır və bununla bağlı bu gün mərasim folkloru kimi indi qəbul olunan mərasimlər silsiləsi xalq ədəbiyyatına daxil olur.**



Şifahi xalq yaradıcılığında mühüm yeri təbiəti dərketmə ilə bağlı ayin, etiqad və mərasimlər təşkil etmişdir. Zaman-zaman bu hadisələri qavramaq, dərk etmək və sanki özünə tabe etmək məqsədilə insanlar ibtidai inanc və etiqadlarını, ayin və mərasimlərini yaratmış və onlar folklor nümunələrində öz əksini tapmışdır. Xalq ədəbiyyatında həmin inam və etiqadlarla bağlı silsilə nəğmələr yaranmışdır ki, onların yalnız bir qismi bu günümüzə qədər gəlib çatmışdır.

Xalq mərasimləri öz mövzu və məzmun xüsusiyyətlərinə görə, əsasən iki qrupa bölünür ki, bunlar mövsüm və məişət mərasimləridir. Mövsüm mərasimləri daha çox xalqın gündəlik həyatı ilə bağlı yaranmış, bir sıra mifoloji görüşləri, o cümlədən animistik, antropomorfik düşüncəni özündə əks etdirmişdir. Mərasim nəğmələri arxaik düşüncənin poetik ölçü və qəliblərini, üslub və ifadə modellərinin ən erkən tiplərini ifadə edir, xalqın etik-estetik dünyagörüşünü, ritual və etiqadlarını sistemli şəkildə ifadə edir. Tədqiqatlarda erkən estetik düşüncəni və məişət əxlaqı detallarını əks etdirmək baxımından mərasim nəğmələri iki şəkildə nəzəri cəlb edir: ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranan nəğmələr və ilin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran nəğmələr. Ayrı-ayrı təbiət hadisələri və etiqadlarla bağlı yaranmış nümunələrə yağışın yağması, günəşin çıxması, küləyin əsməsi, göyün guruldaması, eləcə də oda, suya, küləyə və torpağa inamla bağlı poetik mətnlər daxil edilir.

İkinci bölgüdə ilin müəyyən fəsillərində xalqın birgə əməyini yekunlaşdıran mərasimlərdəki nəğmələr yer almışdır ki, onlar əmək mövsümünün başlanması və ya məhsulun yığılması ilə bağlıdır. Mənbələrə görə, erkən dövrlərdən türk tayfaları içərisində əsasən ilin iki mövsümü, yazın gəlişi, yeni əmək mövsümünün başlanması və payızda məhsulun yığılıb başa çatması ilə bağlı mərasimlər, bayramlar keçirilərdi. Bu bayramlar xalq arasında xüsusi təntənə ilə qeyd olunurdu. Ən önəmlisi isə odur ki, bu bayramların keçirilməsi ilə paylaşmaq düşüncəsi - insanlara yardım etmək və bayram günü hər kəsin evində süfrə açılması amalı ilə əlaqədar idi.

Şifahi və yazılı ədəbiyyatımızın qaynaqlarından olan "Dədə Qorqud" oğuznamələrində bəzi mərasimlərin izlərini müəyyən etmək olar. "Dirsə xan oğlu Buğac" boyunda belə bir süjetə rast gəlmək olur ki, "hər il bir yazda, bir də payızda buğa ilə buğranı savaşdırırlar. Bayandır xan Qalın Oğuz bəylərilə tamaşaya baxır, əylənirdi" ("Kitabi-Dədə Qorqud", 1988, s.36 ). Bu, türk xalqları arasında payızda və yazda keçirilən mövsüm mərasimilə, yaxud meydan tamaşası ilə bağlı bir nümunə kimi diqqəti cəlb edir.

Folklorumuzda yeni əmək mövsümünün başlanması ilə bağlı mərasim və nəğmələr arasında "Şum mərasimi", "Saya mərasimi" və onları bəzəyən nəğmələr diqqəti daha çox cəlb edir . "Novruzqabağı nəğmələr" adı ilə tanınan həmin nəğmələr də üç yerə ayrılır - "Çillə nəğmələri", "İlaxır çərşənbə nəğmələri" və "Bayram məişəti nəğmələri".

Xalq yaradıcılığında mərasim poeziyasında arxaik əmək nəğmələrinin də böyük təsiri olmuşdur ki, bunlara həm cüt nəğmələri, həm də holavar deyilir. Bu nəğmələr əvvəlcə ibtidai məzmun daşımış, bir-iki hecalı misralardan ibarət olmuş və müəyyən ritmə uyğun şəkildə yalnız əmək prosesi zamanı oxunmuşdur. İnsan təfəkkürünün inkişafı nəticəsində şifahi yaddaşda holavar daha da təkmilləşmiş və bayatıların poetik formasını qəbul etmişdir:

*Qara öküz aranda,*
*Çıxar gün qızaranda,*
*Xodaq murada çatar,*
*Torpaqdan bar alandan ...*

Xalq yaradıcılığında ən qədim mərasimlərdən biri də qoyunçuluqla bağlı icra olunan sayaçı mərasimidir. Bu mərasim qoyunların quzuladığı vaxtda keçirilərdi.

*Bu saya kimdən qaldı?*
*Adəm atadan qaldı.*
*Adəm ata gələndə*
*Musa çoban olanda*
*Qızıl öküz duranda*
*Qızıl buğda bitəndə*
*Dünya bünyad tapanda...*

Azərbaycan ədəbiyyatşünaslığında "saya" və "sayaçı sözləri"nin izahına dair müxtəlif mülahizələr irəli sürülmüşdür ki, burada "kölgə" (F.Köçərli), "nəğmə" (M.Arif, M.H.Təhmasib), "say-rəqəm" (Ə.Axundov), "bolluq-bərəkət" (V.Vəliyev), "tanrı, peyğəmbər, işıq, yol göstərən, tamaşaçı, ovçu, çoban" və s. (M.Həkimov) mənaları qəbul edilmişdir.

Xalqın şifahi yaddaşında "Saya yaradan soy qurandır", "Saya qurbanı pirdə olar" "Saya yandıran çıraq ölməz", "Sayanın varı davar, dağın varı qar", "Gözü tox olan sayanın davarı da çox olar", "Sayanın oxu, qurdun xofu yaman olar", "Saya sözdən, qurd gözdən tanınar", "Saya mərd olar, dərd olmaz" və s. hikmətamiz fikirlər bu gün də yaşamaqdadır. M.Arifə görə, "hər il təxminən yaza əlli gün qalmış qoyunlar quzulamağa başladığı zaman çoban paltarı geymiş adamlar kəndbəkənd gəzib "Sayaçı" mərasimi icra edirlər". Y.V.Çəmənzəminli 1921-ci ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatına bir nəzər" adlı tədqiqatında yazmışdır ki, "Sayaçı sözləri tərəkəmə xalqı arasında heyvanlara aid nəğmələrdir ki, toplanıb tədqiq olunmayıb".

Tarixi mənbələrə görə, türklər hələ hunların dövründən bayram və mərasimlər keçirmişlər. Hunların mərasimlərinə bənzər rituallar Göytürklərin zamanında da keçirilmişdir. Türklər hər il bayram mərasimlərini təqribən beşinci ayın ikinci yarısında "Gök Tenqri" və "ıduk yer, suv" üçün qurban kəsməklə başlayardılar. Qurbandan sonra isə şənliklər olurdu, bu zaman oyun oynar, kımız içər, nəğmələr söyləyərmişlər.

Təqribən 840-cı ildən sonra Tarım hövzəsinə gəlib oturaq həyat keçirən uyğurlar buddizmi qəbul etsələr də, əski ənənələrini unutmamışdılar. X əsrin əvvəllərində uyğur kağanını ziyarət edən Çin elçisi Vanq-Yen-Tenin məlumatına görə, uyğurlar üçüncü ayın doqquzunda, yəni martın 9-da bir ayin keçirirlərmiş. Bu ayinin əsas ritualı bir-birinin üzərinə su çiləmək olmuşdur.

Azərbaycan mövsüm mərasimləri arasında "Xıdır", "Xıdır Nəbi" və ya Xıdır İlyas", yaxud "Yazağzı Xızır bayramı", yaxud "Qışyarısı" mərasimlərinin də özünəməxsus yeri vardır. Bu mərasim mifik təsəvvürlərdə yazı qarşılamaqla, yaşıllıq arzusu ilə yanaşı, həm də Xızırın simasında insanlara bolluq, bərəkət və firavanlığın bəxş olunması kimi yaddaşlarda qalmışdır.

Türksoylu xalqlar yazın gəlişini sanki sürətləndirmək məqsədilə mifoloji düşüncədən qaynaqlanan silsilə ayin mərasimləri yaratmış, onları milli mifoloji təfəkkürə uyğun olaraq icra etmiş və gələcək nəsillərə ötürmüşdür.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universisetinin professoru,***
***filologiya üzrə elmlər doktoru***

Azərbaycan.- 2025.- 18 fevral (№ 36).- S.11.